**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**AZ 1005 - Bakı şəhəri, Azərbaycan pr. 7**
**tel:+994 12 590 91 03; faks:+994 12 492 45 90; 590 97 47**
**web: www.mia.gov.az**
**e-mail: info@mia.gov.az**

**«12» 02 2026 il** **№ 3-13/2-15025/2026**

*Sizin №10-1/2-707/2025, 16.12.2025-ci il.*

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

***Hörmətli Vahid müəllim!***

Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 30-cu ildönümü münasibətilə Sizi və rəhbərlik etdiyiniz təsisatın bütün işçilərini təbrik edir, ən xoş diləklərimizi çatdırırıq.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursuna uyğun olaraq təsis edilmiş Auditorlar Palatası ölkəmizdə maliyyə nəzarəti, şəffaflıq və hesabatlılıq mühitinin formalaşdırılmasında, qısa müddətdə milli audit sisteminin hüquqi əsaslarının yaradılmasında önəmli rol oynamışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi və institusional islahatlar çərçivəsində auditor fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması, maliyyə intizamının gücləndirilməsi istiqamətində əhəmiyyətli irəliləyişlər əldə edilmiş və bu proseslərdə fəal iştirak edən Auditorlar Palatası ölkəmizdə biznes və investisiya mühitinə etimadın möhkəmlənməsinə, təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasının təşviqinə, beynəlxalq audit qurumları ilə işgüzar münasibətlərin genişləndirilməsinə, Azərbaycan audit sisteminin qlobal peşəkar mühitə inteqrasiyasına layiqli töhfələr vermişdir.

Peşə fəaliyyətində fərqlənən əməkdaşlarının dövlət mükafatlarına layiq görülməsi isə Palatanın fəaliyyətinə verilən ali qiymətin bariz ifadəsi, eyni zamanda respublikada iqtisadi inkişafın dəstəklənməsi istiqamətində öz gərəkli missiyasını daha böyük uğurla davam etdirməsi üçün mühüm stimul, habelə qürur mənbəyidir.

Bu əlamətdar yubiley günündə qurumlararası əməkdaşlıq əlaqələrimizin milli maraqlara uyğun inkişafını da məmnunluqla qeyd edərək Sizə və Auditorlar Palatasının hər bir əməkdaşına möhkəm can sağlığı, ailə səadəti, məsul və şərəfli işinizdə davamlı uğurlar arzulayırıq.

***Hörmətlə,***

**N a z i r** **Vilayət Eyvazov**

İcra etdi: Rövşən Hüseynov (590-95-54)